# Ümummilli lider və dövlət qadın siyasəti



**Dünən AMEA-da "Ümummilli lider Heydər Əliyevin ictimai görüşlərində gender amili" mövzusunda dəyirmi masa keçirilib.**

Məclisi giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli ulu öndər Heydər Əliyevin xatirəsinin həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda dərin hörmət və ehtiramla yad edildiyini bildirib. "Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsində və tanıdılmasında, dünyada söz sahibi olan ölkələrdən birinə çevrilməsində Ümummilli liderin misilsiz rolu olub" – söyləyən AMEA rəhbəri Heydər Əliyevin mübarizə keçdiyi yolunun, qazandığı təcrübənin, titanik xidmətlərin dünya xalqları üçün bir nümunə, insanlar üçün örnək olduğunu diqqətə çatdırıb.

Ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə AMEA-nın inkişafını diqqət mərkəzində saxladığını deyən akademik qeyd edib ki, rəhbərlik etdiyi qurumun 80 illik yubiley tədbirlərinin zirvəsi Prezident İlham Əliyevin 3 noyabr 2025-ci il tarixində Akademiyanın yığıncağında iştirakı və dərin məzmunlu nitqlə çıxışı etməsi oldu. Dövlət başçısının tarixi çıxışı Azərbaycan aliminə, elminə, ziyalısına və Milli Elmlər Akademiyasına dövlət səviyyəsində diqqətin ifadəsidir.

Bildirilib ki, ulu öndər Heydər Əliyev dünyaya mükəmməl dövlətçilik təlimi təqdim edib. Dahi rəhbər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə xalqımıza ləyaqətlə xidmət edib, zəka və bacarığını Azərbaycan xalqının rifahına, milli dövlətçilik ideyalarının gerçəkləşdirilməsinə həsr edib. Heydər Əliyevin ideyaları, dövlətçilik kursu bu gün də yaşayır, müstəqil Azərbaycan dövlətinin inkişafına, möhkəmlənməsinə xidmət edir və dünyaya müstəqil dövlət olmağın nümunələrini təqdim edir.

Ulu öndərin müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səylərinin hazırda onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və müasir çağırışlara uyğun olaraq inkişaf etdirilir.

Heydər Əliyevin müəyyənləşdirdiyi uğurlu xarici siyasət nəticəsində Azərbaycan dünyada layiqli yerini tutub, beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanınıb. Böyük rəhbərin zəngin həyat yolu və siyasi fəaliyyətinin önəmi yeni nəsillərə layiqincə çatdırılmalıdır.

Sonra ulu öndər Heydər Əliyevə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Dəyirmi masada AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova, AMEA Qadınlar Şurasının sədri, professor Rəna Mirzəzadə, AMEA-nın vitse-prezidenti, akademik Gövhər Baxşəliyeva, İctimai Elmlər Bölməsi elmi şurasının sədr müavini, akademik Nərgiz Axundova, Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru, dosent Xatirə Quliyeva, YAP Veteranlar Şurasının üzvü, AMEA-nın Qadınlar Şurasının İdarə Heyətinin üzvü, hakim-ictimaiyyətçi Zərifə Quliyeva və Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi Gülşən Allahverdiyeva çıxış edərək Ümummilli liderin Azərbaycan xalqı və dövlətçiliyi qarşısında xidmətlərindən danışıblar.

***Qabil YUSİFOĞLU***
***XQ***